**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİNGƏÇEVİR ŞƏHƏRİNİN TARİXİ (1969-2010-cu illər)

İxtisas: 5503.02– Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Vüsalə Əlican qızı Mövlayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı–2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın Sovet dövrü tarixi" şöbəsində yerinə yetirilib.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix elmləri doktoru, professor, **Fəzail Feyruz oğlu İbrahimli** |
| Rəsmi opponentlər: | tarix elmləri doktoru, professor **Mais İsrail oğlu Əmrahov** |
| | tarix üzrə fəlsəfə doktoru, dosent **Arzu Kamal oğlu Abdullayev** |
| | tarix üzrə fəlsəfə doktoru **Günay Pənah qızı Hüseyn** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | tarix elmləri doktoru, professor **Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi: | tarix elmləri doktoru, dosent **İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri: | tarix elmləri doktoru, professor **Mehman Sirac oğlu Süleymanov** |

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir Azərbaycan tarixşünaslığı qarşısında duran ən mühüm vəzifələrdən biri ölkəmizin ən yeni tarixinin dolğun, təfərrüatlı və eyni zamanda obyektiv elmi mənzərəsinin yaradılmasıdır. Azərbaycanın istər son sovet dövrü, istərsə də müstəqillik dönəmi tarixi müxtəlif problemi, fərqli süjet xətlərini ehtiva etməklə, ideoloji qərəzdən uzaq, hərtərəfli tədqiqini gözləməkdədir. Bu problemlər sırasında sözsüz ki, Vətənimizin şəhər və bölgələrinin, o cümlədən Azərbaycanın 4-cü sənaye mərkəzi sayılan, ölkənin sosial-iqtisadi strukturunda strateji önəmə malik olan Mingəçevir şəhərinin tarixinin araşdırılması mühüm yer tutur.

Mingəçevir ölkəmizin nisbətən yeni şəhərlərindəndir. XX-ci əsrin 20-ci illərindən başlayaraq, II Dünya müharibəsinin əvvəllərinədək Kür çayı üzərində elektrik stansiyası hidrotexniki qurğular tikmək, ölkənin enerji təchizatı məsələsini, quraq torpaqları suvarmaq, irriqasiya və meliorasiya işlərini həll etmək istiqamətində müxtəlif axtarışlar və hidroloji tədqiqatlar aparılmışdı. Azərbaycan SSR Xalq Komissarları Soveti və Azərbaycan K(b)P MK-sı "Mingəçevir Hidroqovşağın tikintisi barədə" 29 aprel 1941-ci il tarixli 1876 nömrəli qərarı Su Elektrik Stansiyasının tikintisini dəqiqləşdirdi. İnşasına əsas etibarı ilə İkinci dünya müharibəsindən sonra başlanılmış bu şəhər qısa müddət ərzində respublikanın dördüncü sənaye mərkəzi ünvanına yüksəldi. Hidroqovşağın tikintisi respublikada bir çox problemlərin həllində mühüm rol oynadı. Mingəçevir şəhərində yeni sənaye müəssisələrinin, onlarla yaşayış və digər sosial, inzibati infrastrukturların tikilib istifadəyə verilməsi şəhərin respublikanın xalq təsərrüfatında çox mühüm yeri olan sənaye mərkəzinə çevrilməsinə səbəb olmuşdu. Mingəçevir şəhərinin yaranması bütöv bir regionun sosial-iqtisadi inkişafına güclü təkan verdi.

Şəhərin sosial-iqtisadi və mədəni inkişafında 1970-80-ci illərin ilk yarısı xüsusi önəmə malikdir. Faktiki olaraq Mingəçevir bəhs edilən dönəmdə görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən yeni sənayeləşmənin ən bariz

təzahürlərindən birini təmsil edir. Məhz sözügedən illərdə Mingəçevirin siması xeyli dəyişmiş, onun sənaye və mədəni potensialı əhəmiyyətli dərəcədə artmışdı; sadəcə energetika deyil, çoxprofilli sənaye mərkəzinə çevrilmiş şəhər qəti olaraq Azərbaycanın iqtisadi potensialında mühüm pay çəkisi və əhəmiyyət kəsb etmişdir. Bu baxımdan 1970-80-ci illərdə Azərbaycanda ictimai, iqtisadi, mədəni sahələrdə gerçəkləşdirilən modernləşmə kontekstində Mingəçevir şəhərinin inkişafının araşdırılması, bu inkişafın səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi böyük elmi önəmə malikdir.

Azərbaycanın müstəqillik dövrü son dərəcə mürəkkəb, dolaşıq, bəzən faciəli, lakin eyni zamanda xalqımızın şərəf salnaməsinin önəmli səhifələrini təşkil edən hadisələrlə zəngindir. Bəlli olduğu kimi, Azərbaycan öz müstəqilliyini 1991-ci ildə bərpa etsə də, əvvəlki sovet siyasi və sosial-iqtisadi modelinin çökməsi nəticəsində dərin böhrana qərq olmuş, üstəlik, Ermənistanın hərbi təcavüzü, səriştəsiz rəhbərlik və daxili çəkişmələr üzündən sürəkli fəlakətlər dairəsindən uzun müddət qurtula bilməmişdi. Azərbaycanın bir ölkə və dövlət olaraq həqiqi qurtuluşu 1993-cü ildə Heydər Əliyev cənablarının hakimiyyətə gəlişi nəticəsində mümkün olmuşdur. Məhz Heydər Əliyev şəxsiyyəti ən olumsuz şərtlər və məhrumiyyətlər içərisində, həm daxili, həm də xarici amillərin qarşılıq verdiyi bir şəraitdə, ölkəmizin varlığının belə sual altında olduğu bir vəziyyətdə Azərbaycan dövlətini qurdu, dövlətçiliyin təməl prinsiplərini işləyib hazırladı, onun strateji inkişaf vektorlarını müəyyənləşdirdi. Təsadüfi deyildir ki, Heydər Əliyev Üçüncü Azərbaycan Respublikasının, daha geniş kontekstdə isə müasir dövlətçiliyimizin memarı hesab edilir. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, zəruri hakimiyyət institutlarının və mexanizmlərinin yaradılması və inkişafı, respublikanın müharibə vəziyyətindən çıxarılması, iqtisadiyyatın sabitləşməsi və yeni iqtisadi münasibətlərə keçid, sosial-iqtisadi, mədəni və mənəvi həyatın bütün sahələrini əhatə edən ciddi islahatlara start verilməsi, ölkəmizin inkişaf mərhələsinə qədəm basması və ən başlıcası, Azərbaycanın qlobal siyasi arxitekturada layiqincə təmsil olunması – bütün bunlar Heydər Əliyev rəhbərliyinin imza atdığı fundamental nailiyyətlərdir. Heydər Əliyevin Azərbaycan xalqının və dövlətinin tərəqqisini

nəzərdə tutan strateji kursunu onun siyasi xəttinin varisi Prezident İlham Əliyev uğurla davam etdirir. Sözügedən strategiyanın gerçəkləşməsinin nəticəsidir ki, bu gün Azərbaycan Respublikası sadəcə postsovet məkanında sistem tranzitinin uğurlu örnəyini ortaya çıxarmır, o həmçinin qlobal münaqişə və konfrontasiyaların geniş vüsət aldığı, bütöv dövlətlərin və hətta regionların dağıldığı, səfalət ocaqlarına çevrildiyi bir şəraitdə dayanıqlı tərəqqi modelini sərgiləyir. Bu mətləbdən çıxış edərək, söyləyə bilərik ki, 1991-ci ildən bəri yaşanan tariximizin dolğun və hərtərəfli öyrənilməsi çərçivəsində ayrı-ayrı regionlarımızın, şəhərlərimizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının ən çeşidli aspektlərinin, onların əldə etdiyi nailiyyətlərin araşdırılması vəzifəsi mühüm elmi aktuallıq kəsb edir. Bu baxımdan “Mingəçevir şəhərinin tarixi (1969-2010-cu illər)” mövzusunda tədqiqat işinin elmi əhəmiyyəti böyükdür. Mübaliğəsiz olaraq söyləmək mümkündür ki, Mingəçevir istər iqtisadi potensialına görə, istərsə də yerləşdiyi coğrafi məkanın önəminə görə ölkəmizin strateji bölgələrindəndir. Belə bir faktı qeyd etmək yetər ki, Mingəçevir ölkədə istehsal olunan elektrik enerjisinin 60%-dən çoxunu verir. Bundan əlavə, şəhərdə elektrotexnika, kimya, maşınqayırma sahələri inkişaf etmişdir. Ölkəmizin sənaye potensialına mühüm töhfələr verən Mingəçevirin nəzərdə tutulan zaman kəsimində həm iqtisadi, həm də ictimai-siyasi və mədəni inkişafının araşdırılması, şəhərin hazırkı səviyyəyə çatmaq üçün hansı mərhələlərdən keçdiyinin, nə kimi çətinliklər aşdığının öyrənilməsi ümumilikdə Azərbaycanın ən yeni tarixinin faktiki cəhətdən daha müfəssəl və nəzəri baxımdan daha konseptual mənzərəsinin yaradılmasına xidmət edir.

Dissertasiyanın xronoloji çərçivəsinin 1969-2010-cu illərin seçilməsi təsadüfi deyildir. Belə ki, məhz 1969-cu ildən etibarən o zamanlar SSRİ tərkibində müttəfiq respublika olan Azərbaycan Heydər Əliyevin strateji kursunun həyata keçirilməsinə başlanılması sayəsində sürətli inkişaf mərhələsinə qədəm qoyur. 2010-cu il isə XXI əsrin ilk onilliyinin son ilidir, bu isə ölkəmizin ən yeni tarixinin müəyyən mərhələsinə yekun vurmağa imkan verir.

Mövzunun öyrənilmə səviyyəsi ilə əlaqədar ilk növbədə qeyd etməliyik ki, istər 1970-80-ci illərdə, istərsə də müstəqillik dövründə

Mingəçevir şəhərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı problemi indiyə kimi müstəqil tədqiqat obyekti kimi işlənilməmişdir. İlk dəfə bizim tərəfimizdən tədqiqat obyekti kimi seçilmiş bu mövzunun araşdırılması üçün onunla əlaqədar mənbə və tarixi ədəbiyyatın yetərincə geniş bazasından istifadə olunmuşdur. Bilavasitə Mingəçevir şəhərinin tarixinə – onun inşası və inkişafına dair əsərlərə keçməzdən öncə, qeyd etmək istərdik ki, müasir dünyamızda siyasi, sosial-iqtisadi, mədəni tərəqqinin lokomotivləri kimi çıxış edən, hər bir ölkənin faktiki vizit kartı olan, onun sənaye və mədəni simasını müəyyənləşdirən şəhərlərin tarixinin çoxsaylı aspektlərinin öyrənilməsi ciddi tədqiqat vəzifələri sırasına daxildir. Bu baxımdan ölkə şəhərlərinin keçmişi və bu günü Azərbaycan tarix elminin də diqqətindən yayınmamışdır. Tariximizin ən müxtəlif dönəmlərində Azərbaycan şəhərlərinin meydana gəlməsi və fəaliyyətinin çeşidli problemləri tarixçilərimizin bu və ya digər dərəcədə tədqiqatlarının mövzusu olmuşdur. Bizim xronoloji çərçivəmizə uyğun əsərlər sırasında M.İsmayılovun[1], R.İmanovun[2], A.Nadirovun[3], H.Alıyevin[4], N.Məmmədovun[5] tədqiqatlarını, bəzi digər əsərləri[6] qeyd edə bilərik.

Mingəçevirin tarixinə gəlincə isə, qeyd etmək lazımdır ki,

---

[1] İsmayılov, M. Şəki. Tarixi oçerk / M.Ismayılov. – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, – 1982. – 151 s.

[2] Иманов Р.Д. Из истории нового социалистического города Дашкесана (1945-1970 гг.): / автореферат дисс. кандидата исторических наук. / – Баку, 1973. – 30 с.

[3] Nadirov, A.A. Sovet Azərbaycanının şəhərləri və onlarda sənayenin inkişafı / A.A.Nadirov. – Bakı: Elm, – 1973. – 37 s.

[4] Alıyev H.A. Sumqayıt şəhərinin tarixi / H.A.Alıyev. – Bakı: Elm və təhsil, – 2011. – 544 s.

[5] Məmmədov N.R. Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi: XX əsrin 20-90-cı illəri / N.R.Məmmədov. – Bakı: Təhsil, – 2010. – 197 s.; Məmmədov N.R. Azərbaycanın Xankəndi şəhərinin tarixi / N.R. Məmmədov. – Bakı: Təhsil,– 2011. – 221 s.; Məmmədov N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi / N.R.Məmmədov. – Bakı: Avropa, – 2016. – 959 s.

[6] Əfəndiyev V., Dəmirqayayev Ş. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri / V.Əfəndiyev, Ş.Dəmirqayayev. – Bakı: Nicat, – 1995. – 176 s.; Tapdıqoğlu N. Azərbaycan ərazisinin şəhərləri. Respublika ərazisindəki qədim və müasir şəhərlər. Ensiklopedik bilgilər / N.Tapdıqoğlu. – Bakı: Zərdabi Nəşr, – 2019. – 519 s.

şəhərin layihələşdirilməsinə və salınmasına, burada hidroqovşağın və sənaye müəssisələrinin tikintisinə dair ədəbiyyat mövcuddur. Lakin bu ədəbiyyat daha çox 1940-60-cı illəri əhatə etməklə, tədqiqatımızın bilavasitə xronoloji çərçivəsinə nisbətən az toxunur. Bu sırada meydana çıxan ilk əsərlərdən yazıçı Ə.Sadığın "Sabahı yaradanlar" adlı kitabını xüsusi qeyd etməliyik.[7] Oçerk janrında yazılmış kitab Mingəçevirin tikintisində fəal iştirak edən komsomolçulara və gənclərə ithaf olunurdu.

A.Ə.Əfəndizadənin[8] və H.Sadıqovun[9] əsərləri bilavasitə Mingəçevir şəhərinin tikintisinə həsr olunmuşdur. Akademik üslubda yazılmasa da, sözügedən əsərlərdə arxiv materiallarına istinadən şəhərin inşası haqqında müzakirələr, 1930-40-cı illərdə bununla bağlı layihələr, tikintinin gedişatı haqqında ətraflı məlumat verilir. Mingəçevirin tanınmış ziyalısı, yazıçı-publisist Ə.M.Fətəliyevin əsərində 1950-ci illərdə şəhərdə inşa edilən müəssisələr haqqında maraqlı məlumatlar yer almışdır.[10] Analoji olaraq Ə.S.Məmmədovun 1970-ci ildə çıxmış kitabı 1960-cı illərdə şəhərin sosial-iqtisadi həyatına dair bilgilər ehtiva etməkdədir.[11]

Uzun illər "Mingəçevir işıqları" qəzetinin baş redaktoru olmuş jurnalist F.Abdullayevin də kitabı[12] şəhərin yaranma tarixindən, keçmişindən və müasir həyatından söz açır.

Tanınmış ictimai-siyasi və dövlət xadimi K.Hüseynov 1949-1952-ci illərdə Mingəçevirdə aparılan inşaat işlərinin rəhbərlərindən biri olmuşdur. Bu fakt onun avtobioqrafik səciyyəli əsərində[13] geniş təsvir və şərh olunmuşdur.

---

[7] Ə. Sadıq. Sabahı yaradanlar / Sadıq Ə. Bakı: Uşaqgəncnəşr, – 1949. – 143 s.

[8] Əfəndizadə A. Mingəçevir su qovşağı və onun xalq təsərrüfatında əhəmiyyəti / A.Əfəndizadə. – Bakı: Qızıl Şərq, – 1956. – 46 s.

[9] Sadıqov H. Mingəçevir, Nevinnomısk, Voljski / H.Sadıqov. – Bakı; Gənclik, – 1975. – 59 s.

[10] Fətəliyev Ə.M. Mingəçevir / Ə.M.Fətəliyev. – Bakı: Uşaqgəncnəşr, – 1960. – 52 s.

[11] Məmmədov Ə.S. Mingəçevir / Ə.S.Məmmədov. – Bakı: Azərnəşr, – 1970. – 71 s.

[12] Abdullayev F. Nur şəhəri: [səyahət cizgiləri] / F.Abdullayev. – Bakı: İşıq, – 1995. – 200 s.

[13] Hüseynov K. Bir ömrün salnaməsi: [Avtobioqrafik memuar] / K.Hüseynov. – Bakı: Günəş, – 1998. – 312 s.

P.Qurbanzadənin 1995-ci ildə işıq üzü görmüş kitabı[14] əvvəlki müəlliflərin analoji kitablarından hadisələrə daha geniş panoramdan yanaşması və elmi yönümü ilə seçilir. Mingəçevirin yorulmaz tədqiqatçısı olan müəllifin qələmindən şəhərin qurulmasında misilsiz xidmətləri olan şəxslərin – məşhur inşaat-mexanizasiya mühəndisi Cümşüd Rəşid oğlu Bəxtiyarovun və dünya şöhrətli mühəndis, Mingəçevir Su Elektrik Stansiyasının və ümumilikdə şəhərin tikintisinin həyata keçirilməsinə rəhbərlik etmiş, müasir Mingəçevir şəhərinin əsasının qoymuş İslam Məmməd oğlu İslamzadənin[15] şərəfli əmək və həyat yolundan bəhs edən əsərlər də çıxmışdır.

N.Bayramoğlunun daha çox publisistik səpkili əsərində[16] Mingəçevir və mingəçevirlilərdən bəhs edilir. Müəllif müxtəlif illərdə şəhərdə rəhbər vəzifələrdə çalışanların fəaliyyətinə münasibət bildirmiş, onların xidmətlərinin bu və digər cəhətlərini dəyərləndirmişdi.

B.Yeqanovun dissertasiyası[17] Mingəçevir şəhərinin 1945-1965-ci illər tarixini akademik tərzdə araşdırılmasını təqdim edir. Bu əsər yuxarıda adları çəkdiyimiz əksər kitablardan fərqli olaraq, publisistik, yaxud bədii-memuar səciyyəli olmayıb, sırf elmi tədqiqatdır. Geniş mənbə bazasına istinad edən dissertasiya şəhərin təşəkkülünün bir sıra məqamlarına aydınlıq gətirir.

M.Daşdəmirovun Mingəçevir Toxuculuq Kombinatının 35 illiyinə həsr olunmuş kitabı[18] bizim tədqiqat mövzumuz üçün əhəmiyyətli olmuşdur. Müəllif özü kombinatın nəşr etdiyi qəzetə uzun müddət redaktorluq etdiyindən, onun həyatının müxtəlif təfsilatlarını yaxşı bilir. Əsərdə 1970-ci illərdə Toxuculuq

---

[14] Qurbanzadə (Qurbanov) P. Mingəçevir: hidroqovşaq və şəhər necə yarandı / P.Qurbanzadə. – Bakı; Səda, – 1995. – 220 s.

[15] Qurbanzadə P. İslam İslamzadə: sənədli povest / P.Qurbanzadə. – Bakı: Borçalı, – 2007. – 192 s.

[16] Bayramoğlu N. Mingəçevirdə qalan ömür / N.Bayramoğlu. – Bakı: Çinar-Çap, – 2006. – 223 s.

[17] Еганов Б.З. История возникновения и развития нового социалистического города в Азербайджане - Мингечаура (1945-1965 гг.): Дис. на соискание ученой степени кандидата исторических наук. / – Баку, 1971. – 237 s.

[18] Daşdəmirov M. 35 il və ilmələnən ömürlər / M.Daşdəmirov. – Bakı: Azərbaycan nəşriyyatı, – 1995. – 40 s.

Kombinatının yenidən qurulması, həmçinin 1981-ci ildə Heydər Əliyevin kombinata gəlişi barədə dəyərli məlumatlar verilmişdir.

F.Sadıqovun Azərbaycanın kimya sənayesinin inkişafında Ümummilli lider Heydər Əliyevin xidmətlərinə həsr olunmuş əsərində 1970-ci illərdə Mingəçevirdə kimya müəssisələrinin tikintisindən də bəhs olunur.[19]

Gətirilən ədəbiyyatdan da bəlli olur ki, Mingəçevirin layihələşdirilməsi, təməlinin qoyulması, burada 1940-cı illərin ikinci yarısında vüsət almış tikinti işləri, şəhərin 1940-60-cı illərdə sosial-iqtisadi həyatı kifayət qədər öyrənilsə də, Azərbaycanın sovet dövrü tarixinin zirvəsi hesab edilə biləcək 1970-80-ci illərin ikinci yarısı faktiki olaraq tədqiqatlardan kənarda qalmışdır. Doğrudur, bəzi kitablarda sözügedən dövrdə şəhər sənayesinin bu və ya digər sahəsinin, yaxud sənaye müəssisənin inkişafından söhbət açılsa da, onlar, əvvəla, ciddi elmi araşdırma məqsədi güdmür; ikincisi isə ayrı-ayrı məsələləri işıqlandırarkən, müəlliflər Mingəçevirin sosial-iqtisadi və mədəni tərəqqisinin bütövlükdə mənzərəsini yaratmağa can atmırlar.

Bənzər mülahizələri 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində meydana çıxmış böhran, SSRİ-nin dağılması şəraitində genişlənməkdə olan milli-azadlıq hərəkatı, habelə Azərbaycanın müstəqilliyinin bərpasından sonra yaranmış vəziyyətin tədqiqi ilə bağlı da söyləyə bilərik. O dövrdə şəhərin ictimai vəziyəti haqqında yalnız M.Zülfüqarlının kitabında[20] müəyyən məlumatlar əldə etmək mümkündür. Daha çox müəllifin mənsub olduğu Milli İstiqlal Partiyasının tarixini təsvir edən bu kitabda həm 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində şəhərdə milli hərəkat, həm də sonrakı dövrdə meydana çıxmış siyasi partiyalar haqqında məlumat verilir.

Mingəçevir şəhərinin müstəqillik dövrü tarixinin araşdırılmasında da boşluqlar mövcuddur. Biz bu və ya digər əsərlərdə tədqiqat mövzumuzla bağlı yalnız ayrı-ayrı aspektlərin işlənildiyini görürük.

---

[19] Sadıqov F. Heydər Əliyev və Azərbaycanın kimya sənayesi / F.Sadıqov. – Bakı: Azərbaycan nəşriyyatı, – 2003. – 144 s.

[20] Zülfüqarlı M. Azadlıq və demokratiya mübarizləri: 1988-2003 / M.Zülfüqarlı. – Bakı: Qanun, – 2004. – 112 s.

Yeri gəlmişkən, qeyd edərdik ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi ilə əlaqədar bölgələrimizdə cərəyan edən prosesləri araşdıran bir sıra əsərlər işıq üzü görmüşdür[21]. Hansısa konkret bölgəni deyil, ümumən regionlarımızın inkişafının fərqli cəhətlərini tədqiq edən bu əsərlərdə Mingəçevirin də daxil olduğu Aran iqtisadi rayonu ilə əlaqədar məlumatlar qismən yer almışdır. Qeyd olunan monoqrafiyalar bir qayda olaraq inkişafın iqtisadi problematikası ilə məhdudlaşır.

Ə.X.Nuriyevin monoqrafiyasında[22] ilk dəfə olaraq davamlı və tarazlı regional inkişafın nəzəri-metodoloji məsələləri Azərbaycan şəraitinə tətbiq edilməklə kompleks təhlil edilmiş və ümumiləşdirilmişdir. Əsərdə irəli sürülən bəzi nəzəri müddəalar 2004-cü ildən bəri həyata keçirilən regionların sosial-iqtisadi inkişafı proqramlarının lokal xüsusiyyətlərinə işıq salır.

2005-ci ildə işıq üzü görmüş “Mingəçevir şəhərinin sosial-iqtisadi inkişafı proqramı: (2005-2010-cu və 2015-ci illər)” adlı kitab[23] 2004-cü ilin fevralında qəbul edilmiş “Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı proqramı”nın müddəaları əsasında tərtib edilmişdir. Kitabda Mingəçevir şəhərinin tarixi və iqtisadi-coğrafi xarakteristikası, sosial-iqtisadi durumu, sosial pasportu, sənaye potensialı və onun inkişaf perspektivləri,

---

[21] Hüseynova X.M. Azərbaycanda regional inkişafın idarə olunması problemləri: / iqtisad elmləri üzrə elmlər doktoru dis. / – Bakı, – 2010. – 376 s.; Rzayev İ. M. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər / İ.M.Rzayev. – Bakı: Elm, – 2010. – 468 s.; Abutalıbov R.R. İstehsalın ərazi təmərküzləşməsi və regionların sosial-iqtisadi inkişafı: iqtisad elmləri üzrə fəlsəfə doktoru dis. / – Bakı, – 2010. – 160 s.; Azərbaycan regionlarında tarazlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişaf istiqamətləri / Elmi red. A.A.Nadirov – Bakı: Elm, – 2013, – 302 s.; Alıyev İ., Əsədov A. Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) üzrə Dövlət Proqramı”nın nəticələrinin ölkə iqtisadiyyatının inkişafına təsiri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat elmləri seriyası, – 2009. № 3, s. 3-7.

[22] Nuriyev Ə. X. Davamlı və tarazlı regional inkişaf / Ə.X.Nuriyev. – Bakı: Avropa, – 2017. – 242 s.

[23] Mingəçevir şəhərinin sosial-iqtisadi inkişafı proqramı: (2005-2010-cu və 2015-ci illər) / Elmi məsləhətçi: T.N. Əliyev; Red.: L.B. Babayev – Bakı: Çinar-Çap, – 2005. – 158 s.

şəhərdə əsaslı tikinti və s. sahələr haqqında məlumatlar verilmiş, mövcud meyllərə dair proqnozlar söylənilmişdir.

"Mingəçevir, 2003-2013: hədəflər, inkişaf, nəticələr" adlanan fotoalbomda şəhərin bəhs olunan illərdə iqtisadi inkişafı, infrastrukturu, sahibkarlıq mühiti, məşğulluq və səhiyyə, mədəniyyəti, bura investisiya qoyuluşu haqqında illüstrativ material müvafiq statistika ilə təsdiq olunur.[24]

Dissertasiyanın yazılması zamanı tədqiq olunan problemin konseptual istiqamətini müəyyən etmək baxımından yeddicildlik "Azərbaycan tarixi"nin VII cildindən istifadə olunmuşdur. Tədqiqatımızın xronoloji çərçivəsi ilə uzlaşan sözügedən cilddə Azərbaycanın iqtisadi həyatı geniş şəkildə verilmişdir.

Dissertasiya mövzusunun tədqiqi zamanı problemlə bağlı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivində əsasən fond (8039), Azərbaycan Respublikası Dövlət Arxivi fond (411), Azərbaycan Respublikası Dövlət Arxivinin Mingəçevir filalı fondundakı (95, 72, 218 və s.) arxiv sənədlərinə, dövrü mətbuata, statistik məcmuələrə və digər mənbə xarakterli külliyyatlara geniş müraciət olunmuşdur. İstifadə etdiyimiz mənbələrdən əxz olunmuş məlumatların müqayisəli təhlili bizə istər sovet, istərsə də müstəqillik illərində Mingəçevir şəhərinin sosial-iqtisadi və mədəni həyatının müxtəlif aspekt və problemlərini araşdırmağa imkan vermişdir.

Beləliklə, problemə dair mövcud ədəbiyyatın qısa icmalı söyləməyə əsas verir ki, dissertasiya üçün seçilmiş mövzu xüsusi tədqiqat predmeti olmamışdır. İstər 1970-80-ci illərdə, istərsə də müstəqillik dövründə Mingəçevirin daha çox mədəni inkişafının müəyyən aspektləri, epizodları bir sıra əsərlərdə ələ alınsa da, onlar qarşılarına qoyduqları tədqiqat vəzifəsi ilə əlaqədar olaraq problemi kompleks şəkildə araşdırmamışlar. Sosial və mədəni sahələr isə ya ümumiyyətlə diqqətdən kənarda qalmış, ya da yalnız fraqmentar olaraq işlənilmişdir. Bu baxımdan təqdim olunmuş dissertasiya bu boşluqları aradan qaldırmaq məqsədini güdür.

---

[24] Mingəçevir, 2003-2013: hədəflər, inkişaf, nəticələr: [fotoalbom] / Bakı: [n. y.], – 2013. – 95 s.

**Tədqiqatın obyekti və predmeti.** 1969-2010-cu illərdə Mingəçevir şəhərinin çoxcəhətli inkişaf tarixi seçilmiş tədqiqat mövzusunun obyektini təşkil edir. Tədqiqatın predmeti olaraq istər sovet, istərsə də müstəqillik illərində Mingəçevir şəhərinin sosial-iqtisadi, ictimai-siyasi və mədəni dinamikasının öyrənilməsi, onun keyfiyyət göstəricilərinin araşdırılması, qeyd olunan xronoloji çərçivə daxilində müxtəlif mərhələlərdə sözügedən sahələrin müqayisəli təhlili çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi problemlə bağlı mövcud mənbələrə və tarixi ədəbiyyata istinadən 1969-2010-cu illərdə Mingəçevir şəhərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafını araşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd göstərilmişdir:

- 1950-1960-cı illərdə Mingəçevir şəhərinin sosial-iqtisadi və mədəni inkişafının ümumi mənzərəsinin verilməsi;
- 1969-cu ildə Heydər Əliyevin Azərbaycan SSR rəhbərliyinə gəlişindən sonra respublika həyatının bütün sahələrində başlanmış müsbət dəyişikliklərin səciyyələndirilməsi;
- 1970-1980-ci illərdə Mingəçevirin ictimai, iqtisadi və mədəni tərəqqisinin təhlil olunması, baş verən keyfiyyət dəyişikliklərinin mahiyyətinə münasibət bildirilməsi;
- 1990-cı illərin əvvəllərinin total böhranının Mingəçevir şəhərinin iqtisadi və mədəni həyatına təsirinin göstərilməsi;
- Heydər Əliyev cənablarının hakimiyyətə gəlişindən sonra baş verən irəliləyişlərin araşdırılması;
- 2004-cü ildən etibarən Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə gerçəkləşdirilməkdə olan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının Mingəçevir iqtisadiyyatında doğurduğu müsbət nəticələrin təhlil olunması;
- Müstəqillik illərində Mingəçevirin mədəni inkişafının səciyyəsinin verilməsi.

**Tədqiqat metodları.** Dissertasiyanın tədqiqi zamanı seçilmiş tarixi müqayisəli və tarixi təhlil, sistem metodu qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas kimi götürülmüşdür. Bu zaman tarixi

hadisələrin meydana gəlməsi və inkişafını konkret-tarixi şəraitdə nəzərdən keçirən tarixilik prinsipinə istinad edilmiş, əldə olunmuş faktların, ümumiləşdirmələrin, mülahizələrin obyektiv təhlilinə çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- 1969-1980-ci illərin ilk yarısında görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hərtərəfli modernləşmə prosesi ilə müşayiət olunan üçüncü sənayeləşmə mərhələsini yaşamışdı. Bu, respublikanın digər şəhər və bölgələrində olduğu kimi, Mingəçevirdə də köklü dəyişikliklərə gətirib çıxarmışdı;
- Mingəçevirdə bəhs olunan dövrün sənaye xüsusiyyətlərini, şəhər iqtisadiyyatının əhəmiyyətli dərəcədə diversifikasiyası, yeni müəssisələrinin və bütövlükdə istehsal sahələrinin meydana gəlməsi təşkil edirdi;
- 1970-80-ci illərdə Mingəçevir Azərbaycanın mədəniyyət sahəsində ən coşqun inkişaf edən şəhərlərindən olmuş, onun mədəni siması sürətlə zənginləşmiş, müasir şəhərlərə xas olan cizgilər əldə etmişdi;
- 1990-cı illərdə ümumi böhranla əlaqədar Mingəçevir dərin iqtisadi tənəzzül yaşamış, əhalinin sosial vəziyyəti ağırlaşmışdı. Yalnız Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı bütövlükdə ölkədə olduğu kimi, Mingəçevirdə də ümumi durumun sabitləşməsinə şərait yaratmışdı;
- 1990-2000-cı illərin əvvəllərində Mingəçevir iqtisadiyyatının yenidən strukturlaşdırılması, mülkiyyət subyektinin dəyişməsi, yeni istehsal münasibətlərinin tədricən qərarlaşması yaşanan keçid dövrünün əsas sistem xüsusiyyətlərini təşkil edirdi;
- 2004-cü il 11 fevral və 2009-cu il 14 aprel tarixli I və II "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları"nın icrası ilə əlaqədar Mingəçevirdə sənaye müəssisələrinin yenidən qurulması və modernləşməsi, habelə yeni müəssisələrin yaradılması nəticəsində iqtisadi artım müşahidə olunmaqdadır;
- 2004-cü ildən başlayaraq, Mingəçevir bir növ özünün yeni ictimai-siyasi inkişafını yaşamaqdadır. Şəhər nəinki 1990-cı illərin dağıdıcı böhranının ağır fəsadlarını aradan qaldırmağa müvəffəq

olmuş, habelə müstəqil Azərbaycan dövlətçiliyinə layiqli bir tərzdə, müasir şəhərsalma standartlarına uyğun faktiki olaraq yenidən qurulmaqdadır;

- Mingəçevir şəhərinin sosial-mədəni sahələri son illərdə dinamik yüksəliş dövrünə qədəm basmış, sadəcə kəmiyyət baxımından deyil, həm də daha önəmli keyfiyyət dəyişikliklərinə məruz qalmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya seçilmiş xronoloji çərçivədə Mingəçevir şəhərinin sosial-iqtisadi və mədəni inkişafı məsələlərini öyrənən ilk tədqiqat işidir. Tədqiqat zamanı əldə olunmuş arxiv sənədlərinin, problemə dair ədəbiyyat, mətbuat və müxtəlif mənbə materiallarının təhlili aşağıda sadalananları da dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

- müxtəlif xarakterli mənbələrdən faktların toplanması, sistemləşdirilməsi və təhlili əsasında tarixşünaslığımızda ilk dəfə olaraq 1970-80-ci illərdə Mingəçevir şəhərinin keçdiyi tərəqqi yolu dərin araşdırılmış, sosial-iqtisadi və mədəni sahələrdə cərəyan edən proseslər Heydər Əliyevin o illərdə ümumən respublika miqyasında gerçəkləşdirdiyi modernləşmə və onun tərkib hissəsi olan sənayeləşmə kontekstində nəzərdən keçirilmişdir;

- dissertasiyada ilkin qaynaqlara istinadla Mingəçevir sənayesində 1970-80-ci illərdə baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliklərinin xarakteristikası verilmiş, bu dəyişikliklərin şəhərin iqtisadi strukturunda nə kimi nəticələr doğurduğu təhlil edilmişdir;

- bəhs olunan dövrdə Mingəçevirin təhsil və səhiyyə sistemində yüksəlişin kifayət qədər geniş mənzərəsi yaradılmışdır;

- dissertasiyada1990-cı illərin ilk yarısında Azərbaycanın digər bölgələrində olduğu kimi, Mingəçevirdə də həyatın bütün sahələrini əhatə edən böhranın yerli xüsusiyyətləri arxiv sənədləri və dövri mətbuat materialları əsasında göstərilmişdir;

- Heydər Əliyev cənablarının hakimiyyətə qayıdışından sonra Mingəçevir şəhərinin sosial-iqtisadi və mədəni həyatında böhranın aradan qaldırılması istiqamətində əldə olunmuş uğurlar təhlil edilmişdir;

- sözügedən dövrdə Mingəçevir sənayesinin keyfiyyət dəyişiklikləri inzibati-direktiv metodlara söykənən və daha çox

Ümumittifaq istehsalat zəncirinə bağlanan bir sosial-iqtisadi modeldən dövlətin aparıcı rolunu nəzərdə tutan, tənzimlənən bazar mexanizmləri əsasında fəaliyyət göstərən digər modelə keçid kontekstində öyrənilmişdir;

- regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində 2004-2010-cu illərdə Mingəçevir iqtisadiyyatında müşahidə olunan inkişafın keyfiyyət parametrləri səciyyələndirilmiş, şəhər sənaye müəssisələrinin texniki cəhətdən yenidən qurulması prosesi açılıb göstərilmişdir;

- dissertasiyada bəhs olunan illərdə Mingəçevirdə demoqrafiya, təhsilin, səhiyyənin və mədəni işin vəziyyəti statistik bilgilər əsasında təhlil edilmiş, əldə olunan qənaətlər müvafiq cədvəllərdə əksini tapmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ilk növbədə Mingəçevir kimi yetərincə iri sənaye mərkəzinin timsalında istər sovet sistemi çərçivəsində, istərsə də müstəqillik illərində Heydər Əliyevin respublikamızın hərtərəfli tərəqqisi naminə həyata keçirdiyi strategiyanın lokal xüsusiyyətlərinin və mahiyyət cəhətlərinin araşdırılmasından ibarətdir. Bu, bizə Azərbaycanın sənayeləşdirilməsi tarixinin müəyyən qanunauyğunluqlarını aşkara çıxarmağa və təsnif etməyə imkan verir.

Tədqiqatın praktiki əhəmiyyətinə gəldikdə, burada gətirilmiş geniş faktiki materiallardan, ümumiləşdirmələrdən və əldə olunmuş elmi nəticələrdən Mingəçevir tarixinə dair ümumiləşdirici əsərlərin, Azərbaycan tarixi üzrə dərsliklərin hazırlanmasında, eləcə də respublikamızın sosial-iqtisadi və mədəni inkişaf konsepsiyasının müəyyən olunmasında istifadə oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda Azərbaycan Respublikasının ali məktəblərinin tarix fakültələrində mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəaları müəllif tərəfindən Ukrayna, Rusiya Federasiyasında, həmçinin beynəlxalq və respublika səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycanın Sovet dövrü tarixi” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş, 3 fəsil, 8 yarımfəsil, nəticə daxil olmaqla dissertasiyasının ümumi həcmi 259346 (ədəbiyyat siyahısı istisna olunmaqla) işarədən ibarətdir. Giriş: işarə sayı – 21657: I fəsil: işarə sayı-86073, II fəsil: işarə sayı-34872, III fəsil: işarə sayı-101591, nəticə: işarə sayı-13939.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, dissertasiya işinin məqsəd və vəzifələri, tədqiqat obyekti, problemin öyrənilmə səviyyəsi, tədqiqat metodları, işin aprobasiyası, praktiki əhəmiyyəti şərh edilmiş və onun strukturu verilmişdir.

Dissertasiyanın birinci fəsli **“Mingəçevir şəhərinin sosial-iqtisadi inkişafı və ictimai-siyasi həyatı (1969-1991)”** adlanır və üç yarımfəsildən ibarətdir.

**“Mingəçevirdə 1950-60-cı illərdə yeni sənaye sahələrinin yaranması və sosial-mədəni inkişaf”** adlanan birinci yarımfəsildə Mingəçevir SES-in inşasını vacib edən amillər verilmişdir. Müharibədən sonrakı beşillik Azərbaycan SSR tarixinə faktiki olaraq ikinci sənayeləşmə dövrü kimi düşmüşdür. Azərbaycanda müharibəyə qədərki enerji sahəsi İstilik Elektrik Stansiyalarının üzərində qurulmuşdu ki, onlarında sayı kifayət qədər deyildi. Respublikanın inkişafda olan sənayesi təbii ki, güclü enerji bazasını zəruri edirdi. 6 iyul 1945-ci il tarixdə SSRİ Xalq Komissarları Soveti “Mingəçevir hidroqovşağının və Kür-Araz ovalığının suvarılması tikintisinə yenidən başlanılması” haqqında qərar qəbul etdi[25]. Mingəçevir hidroqovşağının və hidroelektrik stansiyasının tikintisinin tam şəkildə 1952-ci ildə başa çatdırılması nəzərdə

---

[25] Qurbanzadə , (Qurbanov) P. Mingəçevir: hidroqovşaq və şəhər necə yarandı / P. Qurbanzadə. – Bakı: Səda, – 1995. – 218 s.

tutulmuşdu. Birinci yarımfəsildə Mingəçevirdə bir-birinin ardınca tikilən bir sıra iri sənaye müəssisələri və sosial infrastrukturlar haqqında da məlumatlar verilmişdir. Həmçinin qeyd edilən illərdə respublikada ilk olaraq kabel istehsal edən "Azərkabel" zavodu, şəhərin ən böyük müəssisələrindən olan pambıq-parça fabriki, iri panellərdən evtikmə kombinatı, "Azərelekroizolyasiya", qum-çınqıl, şüşə-mahlıc zavodlarının tikilib istifadəyə verilməsi diqqətə çatdırılmışdır. Şəhərin sosial, iqtisadi, mədəni-maarif həyatı haqqında olan məlumatlar da qeyd edilən yarımfəsildə öz əksini tapmışdır.

**"1970-1980-ci illər Mingəçevir sənayesinin inkişafının keyfiyyətcə yeni mərhələsi kimi"** adlanan ikinci yarımfəsildə Azərbaycan SSR-də Heydər Əliyevin hakimiyyətə gəlişi, respublikada başlanan modernləşmə işləri, Mingəçevir sənayesi, buradakı müəssisə və zavodların fəaliyyəti geniş tədqiq olunmuşdur. İkinci yarımfəsildə SSRİ-də həcminə və görülən işlərin miqyasına görə nəhəng tikintilər sırasında duran Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası tikintisi layihəsinin reallaşdırılması tədbirləri haqqında məlumat verilir. Azərbaycan SSR Nazirlər Soveti 3 fevral 1958-ci il tarixində DRES-in tikintisi barədə qərar qəbul etsədə 10 ildən artıq bir müddət ərzində bu layihə kağız üzərində qaldı[26]. Bu nəhəng tikinti müxtəlif yığıncaqlarda DRES-in iqtisadiyyatımız üçün son dərəcə önəmli rolunu dəfələrlə vurğulayan Heydər Əliyevin bilavasitə şəxsi nəzarəti və qayğısı ilə aparılırdı. Azərbaycan DRES-in buraxılışı ərəfəsində Heydər Əliyev 20 oktyabr 1981-ci ildə Mingəçevirdə olmuş, stansiyanın ilk blokunun vaxtından əvvəl tikilib başa çatdırılmasını böyük cəsarət, fədakarlıq və vətənpərvərlik kimi yüksək qiymətləndirmişdir[27]. DRES-in tikilməsi respublikada bu sahə üzrə yerli energetik, mühəndis, inşaatçı heyət üçün böyük təcrübə məktəbi oldu. Eyni zamanda bu sahə üzrə milli mütəxəssislərin ehtiyat fondunun yaradılmasında

---

[26] Mövlayeva V. Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tarixi haqqında // Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransının materialları, – Bakı: – 29–30 aprel, – 2016, – s.1679-1681.

[27] Morozkov V. Yeni əmək nailiyyətlərinə doğru // Kommunist. – 1981, 23 oktyabr. – s. 2.

mühüm rol oynadı. DRES-in tikintisi Mingəçevirdə yeni yaşayış qəsəbəsinin salınması üçün zəmin yaratdı. Energetiklər adlanan bu qəsəbədə sənayenin, tikintinin, səhiyyənin, təhsilin, mədəniyyətin, rabitənin, ticarətin və ictimai iaşənin geniş şəbəkələri işə düşmüşdür.

Qeyd edilən yarımfəsildə Mingəçevirdə mənzil tikintisi barədə məlumat verilərək bu sahə üzrə şəhərdə müsbət göstəricilərin olması qeyd edilir. Hər il Mingəçevirdə təqribən 35-40 min kv.m-dən çox mənzil sahəsi tikilib istifadəyə verilirdi[28]. DRES-in açılışı ilə əlaqədar Mingəçevirə səfər edən Heydər Əliyev Mingəçevirin partiya fəallarının yığıncağında şəhərdə tikintinin vəziyyətinin digər rayon və şəhərlərə nisbətən daha yaxşı vəziyyətdə olduğunu qeyd etmişdi.

Beləliklə, şəhər iqtisadiyyatının əhəmiyyətli dərəcədə diversifikasiyası, yeni müəssisələrin və bütövlükdə istehsal sahələrinin meydana gəlməsi 1970-80-ci illərin xarakteristikasını təşkil edir.

**“Mingəçevir şəhərinin ictimai-siyasi həyatı”** adlanan üçüncü yarımfəsildə şəhərin ictimai-siyasi həyatı tədqiq edilmişdir. Sovet ideoloji işinin əsas istiqamətlərindən biri fərqli sosio-mədəni özəlliklərə, mental-psixoloji yönəlişliklərə sahib, keçdiyi tarixi yol və hazırkı inkişaf səviyyəsinə görə bir-birindən köklü surətdə fərqlənən müxtəlif etnosların, millətlərin “sovet xalqı” adını almış vahid ümumilikdə birləşdirilməsi idi. Beynəlmiləl nikahlar da bu millətlərin daha da yaxınlaşmasına, deməli, “sovet xalqının” əməldə reallaşmasına xidmət göstərirdi. Təbii ki, beynəlmiləlçiliyin təbliği bəzən xalqın əsrlərdən bəri qoruyub saxladığı özünəməxsusluğunu qulaqardına vurmaq, ona yeni “sosialist” ənənəsi adı altında milli şüuruna yad ünsürləri aşılamaq kimi meyllərlə müşayiət olunurdu.

Dissertasiyanın **“Mingəçevir şəhərinin sosial və mədəni həyatı”** adlanan və iki yarımfəsildən ibarət olan ikinci fəslində Mingəçevirdə təhsil, məktəb quruculuğu, idman həyatı, teatr və

---

[28] Mövlayeva V. 1970-1980-ci illərdə Mingəçevir şəhərinin sosial-iqtisadi və mədəni inkişaf tarixindən // – Bakı: Pedaqoji Universitet Xəbərləri, 2014. № 1, – s. 109 -115.

mədəniyyət müəssisələrinin fəaliyyəti tədqiq olunmuşdur.

**“Məktəb quruculuğu: kəmiyyət və keyfiyyət göstəriciləri”** adlanan yarımfəsildə şəhərdə təhsil müəssisələrinin fəaliyyəti, yeni tədris binalarının tikintisi, təhsil müəssisələrinin müəllim kadrları ilə təmin edilməsi, Politexnik texnikumu, Tibb məktəbi, texniki peşə məktəbləri, musiqi və muhasib məktəbinin fəaliyyəti işıqlandırılır.

**“Sosial və mədəni müəssisələrin fəaliyyəti. Şəhərin abadlaşdırılması”** adlanan ikinci yarımfəsildə Mingəçevir Dövlət Dram teatrının, Tarix muzeyinin, kitabxanaların, mədəniyyət mərkəzlərinin fəaliyyəti araşdırılıb. Bu sahə də şəhərdə diqqətdə saxlanılmışdır. Belə ki, Mingəçevir Dövlət Dram Teatrının və Tarix muzeyinin binası 1974-cü ildə Mədəniyyət Nazirliyinin xətti ilə əsaslı təmir olunmuşdu. Həmçinin yarımfəsildə qeyd edilir ki, şəhərdə xəstəxana xidmətinin yaxşılaşdırılmasına yönəlmiş bir sıra tədbirlər görülmüş, stasionarlar yumşaq və bərk inventarlarla təchiz edilmiş, şəhərin səhiyyə şəbəkəsinə xidmət məqsədilə təmir mexaniki sex yaradılmış, biokimyəvi və endokrin analizlərdən ötrü şəhərdə laboratoriya təşkil edilmişdi. Sənaye şəhəri olan Mingəçevirdə Şəhər səhiyyə şöbəsi burada fəaliyyət göstərən müxtəlif zavod və müəssisələrdə çalışan fəhlələrin xəstəlik hallarının qarşısının alınması istiqamətində davamlı tədbirlər həyata keçirmişdi.

**“Mingəçevir şəhəri müstəqillik illərində (1991-2010)”** adlanan üçüncü fəsil üç yarımfəsildən ibarətdir.**“Mingəçevir şəhərində ictimai-siyasi proseslər: siyasi təlatümlərdən sabitliyə və dayanıqlı inkişafa doğru”** adlanan yarımfəsildə SSRİ-nin süqutundan sonra respublikanın hər yerində olduğu kimi, Mingəçevirin də ictimai-siyasi həyatında baş verən dəyişikliklərdən və bu prosesin şəhərə necə təsir etməsi tədqiq edilib. Mingəçevir öz qısa tarixi ərzində 1990-cı illərin ilk yarısında olduğu qədər təlatüm və böhranlar yaşamamışdı. 1992-1993-cü illər şəhər həyatını bütün respublikada olduğu kimi tənəzzül dönəmi əhatə etmişdi. Hakimiyyət mexanizmlərinin sürətlə aşınması, yerli orqanların dəqiq və planlı çalışan işlək təsisatlardan daha çox fərdi və qrup

mənafelərinə xidmət edən qurumları xatırlatması ölkənin digər bölgələrində olduğu kimi, Mingəçevirin də ictimai-siyasi həyatının səciyyəsini təşkil edirdi.

Bəlli olduğu kimi, respublikamız öz müstəqilliyini bərpa etdikdən sonra bəzi xarici dövlətlər ölkəmizə qarşı təzyiqlərdən əl çəkmirdilər. Onlar daxildəki pozucu qüvvələrlə əlaqə yaradaraq, müxtəlif yollarla ölkədə qarşıdurma və xaos yaradırdılar. Surət Hüseynovun qiyamçı hərəkatı Gəncə ətrafı rayonlarda, o cümlədən, Mingəçevirdə də əhali arasında qorxu, vahimə, çaşqınlıq yaratmışdı.

Respublikanın hər yerində olduğu kimi, mingəçevirlilər də ümummilli lider Heydər Əliyevin siyasi platformasını dəstəkləməklə, dövlət başçısının ətrafında sıx birləşməklə, təkcə öz doğma şəhərlərində deyil, bütünlükdə ölkədə ictimai-siyasi sabitliyin qərarlaşmasına öz töhvələrini verirdilər.

Yarımfəsildə 1990-2000-cı illərin əvvəllərində Mingəçevir iqtisadiyyatının yenidən strukturlaşdırılması, mülkiyyət subyektinin dəyişməsi, yeni istehsal münasibətlərinin tədricən qərarlaşması barədə məlumatlar işıqlandırılmışdır.

**“Müstəqillik illərində şəhərin sosial-iqtisadi vəziyyəti: böhrandan tərəqqiyə doğru”** adlanan ikinci yarımfəsildə 2004-cü ildən etibarən Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə gerçəkləşdirilməkdə olan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının Mingəçevir iqtisadiyyatında doğurduğu müsbət nəticələrin təhlili, regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində 2004-2010-cu illərdə Mingəçevir iqtisadiyyatında müşahidə olunan inkişaf göstəriciləri göstərilmişdir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı görülən tədbirlər ildən-ilə Mingəçevirdə də müsbət dəyişikliklərə imkan yaratmışdır. Bunu şəhərin həm iqtisadi, həm də sosial göstəricilərindəki faktlar da sübut edir.

Mingəçevir şəhərinin sosial-iqtisadi vəziyyətində baş verən dəyişikliklərin demoqrafik duruma təsiri yarımfəsildə verilmiş cədvəllərdə öz əksini tapmışdır. Bəhs etdiyimiz dövrün digər mühüm demoqrafik xüsusiyyəti azərbaycanlı əhalinin mütləq və

nisbi sayının nisbətən yüksək artım sürəti idi. 2009-cu ilin siyahıyaalınmasının yekunları şəhərin etnik tərkibinin əhəmiyyətli dərəcədə yekcinsləşməsindən xəbər verirdi: 96304 nəfər şəhər əhalisindən sadəcə 604 nəfəri, yaxud 0,63%-i digər millətlərin nümayəndələri idi.

**“1990-2010-ci illərdə Mingəçevir şəhərinin sosial-mədəni inkişaf dinamikası”** adlanan üçüncü yarımfəsildə müstəqilliyin bərpasından sonra respublikada yaranan çətinliklər, cərayan edən proseslər, münaqişə və bütün bunların təhsil sahəsinə təsiri, qaçqın və məcburi köçkünlərin bütün ümumtəhsil məktəblərində məskunlaşmasının şəhərin təhsil sistemini tamamilə pozması, yalnız əsrlərin qovşağında şəhərdəki təhsil müəssisələrinin normal rejimə qayıtmağı ilə bağlı məlumatlar verilmişdir. Qeyd edilən çətinliklərə baxmayaraq Mingəçevirin təhsil göstəriciləri müsbət mənada həmişə fərqlənib. 2010-cu ildə ali məktəblərə qəbul üçün şəhər üzrə 798 abituriyent sənəd vermişdir. Onların 289 nəfəri tələbə adını qazanmışdır. Şəhər 8 nömrəli məktəbin məzunu Ə.Kazımov ölkədə ən yüksək 700 bal toplayan 7 nəfərdən biri olmuş və “Prezident təqaüdü”nə layiq görülmüşdü.

Təqdim olunmuş dissertasiyada arxiv sənədləri, mətbuat materialları, statistik toplular və digər mühüm qaynaqlar əsasında Mingəçevir şəhərinin 1969-2010-cu illərdə ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafının əsas süjet xətləri araşdırılmış, bu dövr ərzində keçirilən yol dəyərləndirilmiş, mövcud inkişaf meylləri təhlil olunmuşdur. Dissertasiyanın nəticə qismində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və aşağıdakı yekun elmi **nəticələr** əldə edilmişdir:

- Dissertasiyada arxiv sənədləri və mövcud ədəbiyyat əsasında Mingəçevir şəhərinin 1950-1960-cı illərdə sosial-iqtisadi və mədəni inkişafı nəzərdən keçirilmişdir. Proseslərin təhlili əsasında biz belə nəticəyə gəlmişik ki, o illərdə Mingəçevir öz inkişafının növbəti keyfiyyət mərhələsini yaşamışdı. Əgər 1940-cı illərin sonu – 1950-ci illərin əvvəllərində Mingəçevir daha çox hidrotexniki yönümlü şəhər kimi meydana çıxmış və buna uyğun sənaye müəssisələri və infrastrukturla qurulmuşdusa, artıq 1950-ci illərin II yarısı – 1960-cı illərdə mürəkkəb profilli şəhərə

çevrilmişdi.

- Dissertasiyada bütövlükdə respublikada olduğu kimi, Mingəçevir həyatının da bütün sferalarında köklü dəyişikliklər dövrü kimi tarixə düşmüş 1970-80-ci illər daha ətraflı tədqiq olunmuşdur. Belə bir məqam xüsusi vurğulanmışdır ki, məhz Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi Azərbaycanda hərtərəfli modernləşmə prosesinə böyük təkan vermişdi. Respublikanın digər bölgələri kimi Mingəçevir də sosial-iqtisadi və mədəni cəhətdən kəmiyyət artımının üzvi surətdə keyfiyyət dəyişikliklərinə keçdiyi yeni inkişaf mərhələsinə qədəm qoydu.

- Mingəçevir 1960-cı illərdə respublika əhəmiyyətli sənaye şəhəri kimi özünü təsdiqləmişdisə, 1970-80-ci illərdə şəhər artıq İttifaq miqyasında özünün sənaye məhsulları ilə tanınırdı. Mingəçevir müəssisələri tədqiq olunan illərdə istehsal etdikləri məhsulun keyfiyyətində önəmli irəliləyişlərə nail olmuşdular. 1980-ci ildə şəhərin sənaye məhsullarının 17,5% Dövlət keyfiyyət nişanı ilə istehsal olunurdu. Keyfiyyətli məhsul istehsalına görə Mingəçevir orta ittifaq səviyyəsi göstəricilərini ötüb keçmişdi.

- 1981-ci ilin oktyabrında bilavasitə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə tikilmiş Dövlət Rayon Elektrik Stansiyasının birinci blokunun istifadəyə verilməsi Azərbaycanın müstəqil energetika sisteminin formalaşmasında mühüm hadisə oldu. Nəticədə 1980-ci illərin ortalarında Cənubi Qafqazda istehsal olunan elektrik enerjisinin 41,5% Azərbaycanın payına düşürdü.

- 1970-80-ci illərdə Mingəçevirdə 8130 yerlik 8 orta ümumtəhsil məktəbi, 2240 yerlik 8 məktəbəqədər tərbiyə müəssisəsi inşa edilmişdi. 1970-1980-ci illərdə Mingəçevirdə təhsilin inkişafı sadəcə məktəblərin say artımında deyil, habelə onların maddi-texniki bazasının yaxşılaşdırılmasında, tədris prosesinin təkmilləşdirilməsində təzahür edirdi.

- Sözügedən dövrdə şəhərdə xəstəxana xidmətinin yaxşılaşdırılmasına yönəlmiş bir sıra tədbirlər görülmüş, stasionarlar yumşaq və bərk inventarlarla təchiz edilmiş, şəhərin səhiyyə şəbəkəsinə xidmət məqsədilə təmir mexaniki sex yaradılmış, biokimyəvi və endokrin analizlərdən ötrü şəhərdə laboratoriya təşkil edilmişdi;

- Tədqiq olunan illərdə Mingəçevir Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən birinə çevrilmiş, şəhərin mədəni siması əhəmiyyətli dərəcədə zənginləşmişdi.

- Dissertasiyada SSRİ dönəmində şəhərin ictimai həyatı da tədqiq olunmuşdur. Qeyd edilmişdir ki, sovet siyasi sisteminin dayaq sütunu olan Kommunist partiyası çoxfunksiyalı mexanizm kimi çıxış edərək, həm əsas idarəetmə səlahiyyətlərini özündə cəmləşdirən aparıcı hakimiyyət institutu, həm dövlətin ideoloji qayə və yönəlişliklərini cəmiyyətə aşılayan, onun ictimai şüurunu formalaşdıran instansiya, həm də vətəndaşların sosiallaşmasının və ictimai siyasi həyatda iştirakının əsas forması idi. Bu baxımdan təbii ki, Mingəçevir də istisna deyildi.

- Dissertasiyada 1990-cı illərin ilk yarısının sistem böhranının Mingəçevir üçün doğurduğu ağır fəsadları da nəzərdən keçirilmiş, Heydər Əliyev cənablarının Azərbaycanın ilk öncə xilası, daha sonra isə dayanıqlı inkişaf yoluna çıxması istiqamətində gördüyü titanik işlər qeyd edilmişdir. Siyasi proseslərin araşdırılması belə bir qənaətə gəlməyə əsas vermişdir ki, Mingəçevir ictimaiyyəti həm 1994-cü ilin oktyabr günlərində, həm də 1995-ci ilin mart hadisələri zamanı qəti və birmənalı şəkildə Azərbaycan dövlətçiliyinin müdafiəsinə qalxmış, ölkəni hərcmərcliyə sürükləyən qüvvələri əzmkarcasına dəf etmişdir.

- 1990-cı illərdə həm ümumi sosial-iqtisadi böhran, həm də müharibə ilə əlaqədar şəhərə 20 minə yaxın məcburi köçkünün gəlişi təbii ki, Mingəçevirin sosial durumunu əhəmiyyətli dərəcədə pisləşdirmişdi. Dissertasiyada sözügedən illərdə böhranın Mingəçevir iqtisadiyyatına təsiri də araşdırılmışdır. Mingəçevir şəhər icra hakimiyyəti fondunun materiallarının təhlili belə qənaətə gəlməyə imkan verir ki, o dövrdə şəhər hakimiyyəti qarşısında sənaye müəssisələrinin sovet dövrü istehsal göstəricilərini bərpa etmək tapşırığı qoyulmuşdu. Bu cür vəzifə bütövlükdə 1990-cı illərin ortaları və ikinci yarısı üçün səciyyəvi idi. Fəqət yeni iqtisadi reallıqlar SSRİ məkanında istehsalat münasibətləri zəncirinə söykənən və vahid İttifaq bazarına hesablanan sənaye müəssisələrinin əvvəlki həcmdə və miqyasda fəaliyyətini qeyri-mümkün edirdi. Bir müddət sonra əvvəlki planlı iqtisadi modeldən

bazar münasibətlərinə söykənən yeni modelə keçid prosesi bu vəzifəni önəmli dərəcədə aktuallıqdan saldı. Müstəqil Azərbaycan Respublikası fərqli prinsiplər və qaydalar əsasında fəaliyyət göstərən yeni qlobal iqtisadi münasibətlər sisteminə inteqrasiya olunurdu, bu isə sənayenin yenidən strukturlaşdırılmasını, müəssisələrin bir çoxunun yeni gerçəkliklərə müvafiq olaraq, öz profilini kökündən dəyişdirilməsini, rəqabət və təşəkkül tapmış iqtisadi mənzərəyə uyğunlaşmağı tələb edirdi. Ümumiyyətlə, 1990-2000-cı illərin əvvəllərində Mingəçevir iqtisadiyyatı keçid dövrünün ümumi qanunauyğunluqlarına müvafiq olaraq, yenidən strukturlaşdırılırdı.

- Dissertasiyada belə bir məqam vurğulanmışdır ki, 2004-cü ildən başlayaraq, Mingəçevir bir növ özünün yeni inkişaf dövrünü yaşamaqdadır. Mingəçevir nəinki 1990-cı illərin dağıdıcı böhranının ağır fəsadlarını aradan qaldırmağa müvəffəq olmuş, habelə müstəqil Azərbaycan dövlətçiliyinə layiqli bir tərzdə, müasir şəhərsalma standartlarına uyğun faktiki olaraq yenidən qurulmaqdadır. Bu quruculuq-abadlıq işləri əhəmiyyətli dərəcədə ümummilli lider Heydər Əliyev kursunun davamçısı Prezident İlham Əliyevin bölgələrin, o cümlədən Mingəçevirin inkişafına verdiyi prioritet önəm sayəsində mümkün olmuşdur. Dissertasiyada Prezident İlham Əliyevin 2004, 2009 və 2010-cu illərdə Mingəçevirə səfərləri geniş şərh olunmuşdur.

- Dissertasiyada 2004-cü il 11 fevral və 2009-cu il 14 aprel tarixli I və II "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları"nın icrasından irəli gələn və Mingəçevir üzrə olan nəticələr xüsusi araşdırılmışdır. Faktiki olaraq, sözün müstəqim mənasında Mingəçevir sənayesinin yüksəlişi məhz sözügedən proqramların gerçəkləşməsi sayəsində mümkün olmuşdu. 2004-cü ildən etibarən Mingəçevir sənayesində cərəyan edən proseslərin mahiyyət cəhəti kimi mövcud müəssisələrin yenidən quraraq və mülkiyyət subyektini dəyişərək, yeni iqtisadi reallıqlara uyğunlaşması, habelə ölkə qarşısında duran modernləşmənin müasir vəzifələrinə müvafiq olaraq, tamamilə yeni müəssisələrin istifadəyə verilməsi çıxış edirdi.

- Dissertasiyada sözügedən illərdə sosial-mədəni sahədə

vəziyyət də tədqiq olunmuşdur. Təhsil sahəsindəki yeniliklər, "Elektron məktəb" layihəsi, təhsil işçilərinin ixtisas səviyyəsinin yüksəldilməsi, müəllim və tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması, təhsilin idarə olunmasının təkmilləşdirilməsi, bu sahədəki yenilənmə və müasirləşdirmə respublikada təhsilin, davamlı inkişaf strategiyasının ən mühüm istiqamətlərindən və göstəricilərindən birinə çevrilmişdir.

- Ümumiyyətlə, müstəqillik illərində Mingəçevirin mədəni həyatı digər sahələrdə olduğu kimi, böhran və tənəzzül (1990-cı illərin ilk yarısı), durğunluq (1990-cı illərin II yarısı – 2003) və inkişaf (2004-cü ildən) mərhələlərindən keçmişdir.

Dissertasiya işinin nəticə hissəsində tədqiqat mövzusunun elmi mahiyyətindən irəli gələrək müəyyən tövsiyyələr irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Mingəçevir hidroqovşağının və Azərbaycanın yeni sənaye mərkəzinin yaranma tarixindən // – Bakı: Tarix və onun problemləri, – 2014. №1, – s.103-111.
2. 1970-1980-ci illərdə Mingəçevir şəhərinin sosial-iqtisadi və mədəni inkişaf tarixindən // – Bakı: Pedaqoji Universitet Xəbərləri, – 2014. №1, – s.109-115.
3. Azərbaycan Respublikasının Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının Mingəçevir şəhərində həyata keçirilməsi (2004-2008) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Elmi Əsərlər, – 2018. c. 69, – s.192-200.
4. Müstəqillik illərində Mingəçevirdə təhsil (1991-2010) // – Naxçıvan: Naxçıvan Universiteti Elmi əsərlər, – 2019. №4, – s.152-158.
5. Мингячевир в годы независимости (1991-2010) // – Ужгород: Науковий Bісник Ужгородского Національного Унiверситету, Серія Міжнароднi Вiдносни, – 2019. №5 , – с.131-136.

6. Особенности социально-экономического развития города Мингячевира в 1993-2010 // – Москва: Современная научная мысль, – 2019. №5, – с.163-167.
7. Mingəçevir şəhərinin ictimai-siyasi həyatı // – Gəncə: Elmi Xəbərlər jurnalı, − 2024. №1, − s.73-78.
8. Mingəçevir şəhərinin davamlı sosial-iqtisadi inkişafına tarixi baxış // Davamlı İnkişafın milli modeli və strategiyası mövzusunda Respublika Elmi Konfransının materialları, – Mingəçevir: – 27– 28 noyabr, – 2015, – s. 320-322.
9. Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tarixi haqqında // Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransının materialları, Qafqaz Universiteti. – Bakı: – 29-30 aprel,– 2016, – s. 1679-1681.
10. Туристический Потенциал Мингячевира" Наука и Образование: Сохраняя Прошлое, Создаём Будущее: сборник статей XXXI Международной научно-практической конференции, – Пенза: Наука и Просвещение, – 10 декабря, – 2020, В 2 ч. ч. 1. с.101-105.
11. Mingəçevirin arxeoloji irsi haqqında // Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar” mövzusunda Respublika Elmi Konfransının materialları, – Mingəçevir: –11–12 dekabr, – 2020, – s. 462-464.

Dissertasiyanın müdafiəsi "10" oktyabr 2024-cü il tarixində saat 10$^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.08.2024

Kağızın formatı: A5

Həcm: 42944

Tiraj: 100